## Fakültənin Tələbə Həmkarlar İttifaqı Komitəsi

Tələbə Həmkarlar İttifaqı Komitəsi universitetdə tələbələri ictimai işlərə cəlb edərək bu istiqamətdə formalaşmasında, tələbələrin sosial problemlərinin həllində, yataqxana ilə təmin olunmalarında, ehtiyacı olanlara maddi yardım göstərilməsində, dərsə davamiyyətin artırılmasında, elmi işlərə cəlb olunmalarında, istedadlı tələbələrin üzə çıxarılmasında, ictimai işlərdə və elmdə fərqlənən həmkarlar aktivlərinin mükafatlandırılmasında, tələbələrin təlim-tərbiyələrinin, asudə vaxtlarının, yay istirahətlərinin təşkili istiqamətində fəaliyyət göstərir.

**THİK-in FƏALİYYƏT STRATEGİYASI**

Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tələbə kollektivini özündə birləşdirən dövlət qeydiyyatından keçmiş, universitetdə fəaliyyət göstərən ictimai təşkilatdır.

**THİK-nin təşkilati fəaliyyəti demokratik prinsiplər əsasında qurulub:**

– Fikirlərin ümumiliyi və hüquqların bərabərliyi;

– THİK-nin hər bir üzvünün fikrinə hörmət;

– İlk təşkilatların özünüidarəetmə hüququndan tam sərbəst istifadə etməsi;

– UNEC THİK-nin əsasnaməsini qəbul edən hər bir fakültə tələbəsi THİK-nin üzvü ola bilər. THİK-nə qəbul şəxsi ərizə və ilk təşkilatların qərarı əsasında aparılır.

THİK-i tələbələrin asudə vaxtını səmərəli təşkil etmək üçün universitet daxilində müxtəlif mədəni-kütləvi tədbirləri, idman yarışları keçirir və tələbələrin intellektual səviyyəsini yüksəltmək üçün müxtəlif bilik yarışları təşkil edir.

**THİK-nin üzvü aşağıdakı hüquqlara malikdir:**

– Komitənin rəhbər orqanlarını və orqanlara seçilmək;

– Komitənin fəaliyyətinə aid olan məsələlərin müzakirəsində sərbəst iştirak etmək;

– Komitə tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etmək .

THİK tələbələrin sosial məsələləri ilə də yaxından məşğul olur. Təşkilat tələbələrə müxtəlif formalarda maddi yardım edir. Yay tətilində tələbələrin istirahət düşərgələrində istirahətini təşkil edir.

Təşkilat tələbələrin elmi dünyagörüşünü inkişaf etdirmək məqsədilə tarixi əlamətdar günlərə həsr olunmuş elmi-praktik konfranslar keçirir.

**Fakültənin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Həşimov Həsən Ramiz oğludur.**

Həşimov Həsən Ramiz oğlu 2004-cü il fevral ayının 28-də Bakı şəhərində anadan olmuşdur. 2021-ci ildə Bakı şəhəri Yasamal rayonu 52 saylı tam orta məktəbi bitirib. Elə həmin ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və mühasibat" fakültəsinə daxil olmuşdur.

Universitetə daxil olduqdan sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin üzvü olmuş, universitetin və fakültənin sosial-ictimai həyatında fəallığı ilə seçilmişdir.

2021-ci ildə imtahan sessiyalarının nəticələrinə görə uğur qazanmış və həmkarlar ittifaqı fəalı olaraq Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin adlı təqaüdünə layiq görülmüşdür.

2022-ci il UNEC Məzun Gününün təşkilində fəal iştirakına görə UNEC rektoru Ədalət Muradov tərəfindən təşəkkürnamə ilə təltif edilmişdir.

2022-ci ildə Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi və Böyük Qayıdış Gənclər Təşkilatının təşkilatçılığı ilə təşkil olunmuş YayFest, Xarıbülbül və Xüsusi Təyinatlı Gənclik düşərgələrində təşkilatçı qismində fəal iştirak etmişdir.

2022-ci ilin sentyabrında UNEC Maliyyə və mühasibat fakültəsi THİK sədri vəzifəsinə seçilmişdir.